**UOT 82**

**GÜNEL ƏSGƏROVA***

# "MOLLA NƏSRƏDDİN" JURNALI "ŞƏRQ QAPISI" SƏHİFƏLƏRİNDƏ

*Azərbaycan mətbuatı tarixində özünəməxsus məktəb yaratmış milli mətbuatımızın inkişafında ən yüksək zirvəni təşkil edən mətbuat orqanlarından biri də "Şərq qapısı" qəzetidir. Naxçıvan ictimai-siyasi həyatı ilə yanaşı ədəbi-mədəni mühitinin inkişafında mühüm rol oynayan "Şərq qapısı" qəzeti ölkəmizdə maarifçiliyin, elmin inkişafına öz layiqli töhfəsini verməkdədir. "Şərq qapısı"nın ilk sayının çapdan çıxmasının 100 illik yubileyi ilə bağlı Naxçıvan Muxtar Republikası Ali Məclsi Sədrinin imzaladığı Sərəncam muxtar respublikamızda milli mətbuatın inkişafına, sözə, qələm əhlinə, ziyalı fikrinə və yaradıcı təfəkkürə verilən yüksək qiymətin, dəyərin bariz ifadəsidir.*

*Məqalədə C.Məmmədquluzadənin şah əsəri olan "Molla Nəsrəddin" jurnalı haqqında naxçıvanlı müəlliflərin "Şərq qapısı" qəzetində dərc olunmuş yazıları mövzular üzrə qruplaşdırılmış və təhlil edilmişdir..*

**Açar sözlər:** *"Şərq qapısı" qəzeti, "Molla Nəsrəddin" jurnalı, Naxçıvan, mollanəsrəddinçilər, ədəbi məktəb, mətbuat.*

Muxtar respublikamızın ilk mətbuat orqanı olan "Şərq qapısı" qəzeti Naxçıvanın muxtariyyət tarixinin öyrənilməsi baxımından dəyərli salnamədir. Naxçıvan elmi-ədəbi mühitinin tanınmış tənqidçi və ədəbiyyatşünasları, tarixçiləri və dilçi alimləri sözün əsl mənasında ədəbiyyat və mənəviyyat məktəbi olan "Şərq qapısı" qəzetində yetişib püxtələşmişlər.

Bir sıra qəzet və jurnalların geniş yayılıb tanınması və kütləviləşməsində də "Şərq qapısı"nın əvəzsiz xidmətləri olub. Bu baxımdan qəzetin səhifələrində məşhur "Molla Nəsrəddin" jurnalı haqqında dərc olunan yazılar daha çox diqqəti cəlb edir.

"Molla Nəsrəddin" jurnalının yaranmasını şərtləndirən amillər, əsas müəllifləri, amalı, məsləki, dili haqqında naxçıvanlı müəlliflər geniş tədqiqatlar aparmış, həmin tədqiqatlarının nəticələrini "Şərq qapısı" qəzetində oxuculara təqdim etmişlər. Akademik İ.Həbibbəyli jurnalın ədəbiyyat tariximizdəki müstəsna rolundan bəhs edərək yazır: "Azərbaycan ədəbiyyatında "Molla Nəsrəddin" dövrü milli bədii fikrin inkişafında yeni və xüsusi bir mərhələdir. Bu mərhələ başda C.Məmmədquluzadə olmaqla "Molla Nəsrəddin"ədəbi cəbhəsinin gərgin, ardıcıl ədəbi mübarizəsi sayəsində intişar tapmışıdır" [1. s. 338].

Azərbaycan ədəbiyyatı və mətbuatı tarixində şərəfli bir dövr açan "Molla Nəsrəddin" məcmuəsinin milli ideologiya əsasında öyrənilməsi, tədqiqi və təbliği bu gün də öz aktuallığını itirməmişdir. Jurnal haqqında nəinki ölkəmizdə hətta, xarici ölkələrdə də dəyərli fikirlər söylənmişdir. Hələ 1914-cü ildə ingilis alimi E.Braun Londonda çap etdridiyi "Məşrutə dövründə İran mətbuatı və ədəbiyyatı" adlı 2 cildlik əsərinin ayrıca bir fəslində "Molla Nəsrəddin" jurnalının nüfuz və əhəmiyyətindən bəhs etmiş, jurnalın fəaliyyətinə və onun redaktorluq xidmətlərinə yüksək qiymət vermişdir. "Şərq qapısı" qəzetində də jurnalın tarixi ilə bağlı maraqlı yazılar dərc edilmişdir: İ.Həbibbəyli "Molla Nəsrəddin" ədəbi məktəbi və mollanəsrəddinçilik" [6, 2016, 9 aprel], İ.Cəfərov "Molla Nəsrəddin" müqəddəs ideyalar məcmuəsi: Molla Nəsrəddin jurnalistikanın qanun və prinsipləri" [6, 2006, 15 fevral], "Molla Nəsrəddin"-müqəddəs ideyalar məcmuəsi" [6, 2009, 7 aprel] və "Azərbaycan ədəbiyyatı və jurnalistikasında C.Məmmədquluzadə və "Molla Nəsrəddin" zirvəsi" [6, 2011, 20 aprel], H.İsrafilov, F.Bayramov

"İngilis alimi "Molla Nəsrəddin" haqqında: şərqşünas məşhur prof. Eduard Braun" [6, 1956, 14 aprel], İ.Mollayev "Molla Nəsrəddin və Naxçıvanlı müxbirləri" [6, 1965, 30 iyul], M.Nəcəfova "Xarici mətbuat "Molla Nəsrəddin" haqqında" [6, 1966, 19 iyun], Ü.Vəliyeva "Molla Nəsrəddin" ədəbi cəbhəsi və bu cəbhənin ön sıralarını təmsil edənlər Azərbaycan mədəniyyətinə böyük töhfələr vermişlər" [6, 2009, 6 yanvar], S.Əzimova "Molla Nəsrəddin" jurnalı bütün dövürlər üçün örnək olan mətbuat nümunəsidir" [6, 2008, 5 aprel], F.Fərəcov "Mətbuat tariximizdə izi olan jurnal" [6, 2006 7 may] və "Satirik publisistakanın banisi" [6, 2009 22 aprel], N.İsmayılova "Naxçıvanlı dahilər və mətbuat" [6, 2015 2 iyun], G.Novruzova "Yaddaşlarda yaşayan jurnal" [6, 2008, 8 aprel], A.Yadigar "Zəmanənin yaratdığı "Molla Nəsrəddin" [6, 2019, 20 aprel] adlı məqalələrində Mirzə Cəlil dünyagörüşünün təşəkkülü və inkişafı, ədəbi mühit və mətbuata gəlişi, demokratiya uğrunda savaşındakı ən güclü silahı olan ilk satirik-yumoristik jurnalının keçdiyi keşməkeşli inkişaf yolları araşdırılmışdır.

Mollanəsrəddinçilər **ana dilimizin** saflığı uğrunda daim mübarizə apararaq onun gözəlliyi, qorunması və tərəqqisi üçün danılmaz xidmətlər göstəriblər. "C.Məmmədquluzadə jurnalın ilk sayından etibarən "açıq ana dilində" yazacağını elan etmiş, bütün yaradıcılıq fəaliyyəti boyu bu andına sadiq qalmışdır. Digər mollanəsrəddinçilər də dərhal bu ideyanın müdafiəsinə qalxmışlar. Qısa müddətdə dövri mətbuatda mollanəsrəddinçi ədiblərin sadə, açıq-aydın ana dilində yazıb-yaratmağa çağıran şeir və məqalələri sıx-sıx görünməyə başlanmışdır"[1.s.354].

Jurnalın **ana dilində** çap edilməsinə böyük önəm verən Mirzə Cəlil Təbrizdə onun nəşri zamanı bir sıra çətinliklərlə üzləşir. "Molla Nəsrəddin"i azərbaycanca nəşr etdirmək istəyinə İran hökuməti icazə vermir, farsca çap olunmasını tələb edir. Mirzə Cəlil isə onlara belə cavab verir: "Siz məndən 15 il Azərbaycan dilində nəşr olunan jurnalın fars dilində çap olunmasını tələb edirsiniz. Təbriz şəhərində erməni dilində dörd qəzet nəşr olunur. Lakin bir nəfər iranlı belə erməni dilini bilmir. Amma mən erməni dilini bilirəm. Elə isə icazə verin "Molla Nəsrəddin" i erməni dilində nəşr edim" [3, s.91]. Bu cavabdan sonra icazə verilir və "Molla Nəsrəddin"in 8 nömrəsi Təbrizdə ana dilində nəşr edilir.

Prof. Ə.Quliyev 2006-cı ildə "Şərq qapısı" qəzetində dərc edilmiş "İlk satirik jurnalımız və milli dil məsələsi" adlı məqaləsində [6, 2006, 2 may] mollanəsrəddinçilərin ana dili sahəsindəki mübarizəsindən ətraflı şəkildə bəhs edir. "Molla Nəsrəddin" jurnalının əsas hədəflərindən biri olan ana dilinin təmizliyi və inkişafı uğrundakı mübarizəsinə digər naxçıvanlı müəlliflər də öz yazılarında geniş yer vermişlər: E.Maqsudov "Mən ki, dilsiz xalq olmamışam" [6, 2002, 28 mart], G.Allahyarova "Salınız yadınıza o günləri ki, ananız sizə bu dildə layla çalırdı" [6, 2006, 18 fevral], K.Camalov "Şərqin böyük carçısı" [6, 2010, 27 aprel], "Böyük demokrat C.Məmmədquluzadə və ana dili" [6, 2009, 13 fevral] və "Mollanəsrəddinçilər və ana dili təlimi [6, 2012, 29 avqust; 2010, 27 aprel], M.Rüstəmova "Molla Nəsrəddin" və ana dilimizin saflığı" [6, 2002, 11 iyun], S.Vəliyev "Molla Nəsrəddin"də dil və tədris məsələləri" [6, 2006, 19 aprel], S.Həsənova "Molla Nəsrəddin və "Füyuzat" jurnallarının dil məsələlərində mövqeyi" [6, 2006, 30 avqust] və M.Məmmədovanın "Müsahibim "Molla Nəsrəddin"dir" [6, 2019, 18 iyul] sərlövhəli məqalələrində cəhalət və mövhumatın hökm sürdüyü bir zamanda mollanəsrəddinçilərin xalqın başa düşəcəyi dildə yazıb-yaratmaqları, ana dilimizin saflığının qorunmasındakı vətəndaşlıq xidmətləri və mübarizə yolunun nə qədər şərəfli və çətin olduğu vurğulanır.

"Mollanəsrəddinçilərin fikrincə, qadın azadlığı uğrunda mübarizə aparmaq cəmiyyətin demokratikləşməsinə xidmətin ifadəsi demək idi. Buna görə də mollanəsrəddinçi nəsrdə, publisistikada və satirik şeirdə qadın azadlığı problemi üstünlük təşkil etmişdir" [1.s.349]. Jurnalın qadın məsələsinə həsr etdiyi məqalələrdə Azərbaycan qadının kölə halına salınması, elmdən, təhsildən uzaqlaşdırılması, qız götürüb qaçırmaq, çoxarvadlılıq, azyaşlı qızların özlərindən

yaşca böyük kişilərə zorla ərə verilməsi, qızların ataları tərəfindən alqı-satqı vasitəsinə çevrilməsi kimi eybəcərliklər açıq şəkildə kəskin satira atəşinə tutulmuşdur. "Molla Nəsrəddin" jurnalı Azərbaycan qadının savadlanması və ictimai həyata atılması zərurətini təbliğ edirdi. O dövrdə tək-tək də olsa təhsil almış qızların adları jurnal səhifələrində iftixarla çəkilirdi. Məsələn, jurnalın 1908-ci il nömrəsinin birində xaricdə təhsil almağa getmiş ilk azərbaycanlı qadın Leyla xanım Şahtaxtlı haqqında məlumat verilmişdir [4,1908, №52, s.4].

"Şərq qapısı" qəzetində dərc edilən naxçıvanlı müəlliflərdən K.Camalovun "Cəlil Məmmədquluzadə qadınların tutduğu mövqeyi "Molla Nəsrəddin" jurnalında realist bir yazıçı kimi göstərirdi" [6, 2011, 20 may] və Ş.Həsənəliyevanın "Molla Nəsrəddin" jurnalında qadın azadlığı" [6, 2007, 7 aprel] adlı məqalələrində qadın hüquqsuzluğu, onların savadsızlığı, elmdən, təhsildən uzaq düşmələri kimi məsələrə toxunulmuşdur.

K.Camalov yuxarıda adı çəkilən məqaləsində jurnalın Azərbaycan qadınlarının hüquqsuzluğu, elmdən, təhsildən uzaq düşmələri, savadsız olmalarını məharətlə açıb göstərən nömrələrdən nümunələr vermişdir. Nümunələrdən birində deyilir: "Adi müsəlman kişisi "İrşad" qəzetinin növbəti nömrəsini oxuyarkən, arvad ona qulaq asır. "İrəvan milyonçuları Zəngəzur aclarına on dörd manat ianə yığıb göndəriblər". Bunu eşidən savadsız qadın ərindən soruşur ki, "on dörd manat nə qədər pul edər?". Mən cavab verirəm ki, bir manat on elər, bir də dörd manat. Buradan ayıb olmasın, bizim Fuadın anası başlar sağ əlinin barmaqlarını saymağa, olar beş, sonra başlar sol əlinin barmaqlarını saymağa altı, yeddi, səkkiz, doqquz, on... sonra barmaqlarının havada saxlayıb mənə deyər ki, "sən də barmaqlarını say görüm nə qədərdir? Mən də başlaram sağ əlimiin barmaqlarını saymağa: on bir, on iki, on üç, on dörd. Burada ayıb olmasın, bizim ev adamı bir qədər öz barmaqlarına baxar, sonra üzünü mənə tutub deyər: Bu İrəvan milyonçularının nə çox pulu var ki, özgələrinə bu qədər pul verirlər".

Mirzə Cəlilin "Xatiratım" əsərində qeyd etdiyi kimi "Molla Nəsrəddin" məcmuəsi o vaxt birinci nömrədən başlayıb baltanı islam mövhumatının başından elə bərk endirdi ki, adını müsəlman qoyan bəndə barmaqları ilə qulaqlarını tutub, "molladan" qaçmağa və bu sözləri eşitməməyə üz qoydu [2.s.104]. Ruhanilərin və çar senzurasının bütün təqib və hədələrinə baxmayaraq jurnalda avam xalqın, zəhmətkeş kütlələrin ağır istibdad şəraitində yaşayışları təsvir edilir, xanlar, mülkədarlar, fırıldaqçı din xadimləri satiranın gücü ilə qamçılanırdı. R.Hüseynovun 14 aprel 2007-ci ildə "Şərq qapısı" qəzetində çap olunmuş "Mübariz və cahanşümul jurnal" adlı məqaləsində yazılır: "Onlar *(mollanəsrəddinçilər-G.Ə.)* 1905-ci il inqilabını qanlara qərq edən Nikolayı, Şərqin müstəbid padşahlarını, müftəxor ruhaniləri nifrətlə ifşa edir, qəflət yuxusundan oyatmaq istədiyi zəhmətkeş təbəqələrin nümayəndələrini isə ürəkağrısı ilə tənqidə tuturdu".

"Şərq qapısı" qəzetində dərc olunan Ə.Əliyevin "Molla Nəsrəddin"in səhifələrində kəndli məsələləri" [6, 1965, 15 oktyabr], F.Bayramovun "Molla Nəsrəddin"in düşmənləri" [6, 1965, 30 iyun], S.Həmzəyevin "Molla Nəsrəddin" istehzası" [6, 1970, 21 mart] və A. Zamanovun "Həqiqət kitabı" [6, 1986, 20 aprel] və "Demokratik ideyalar carçısı: "Molla Nəsrəddin" [6, 1986, 30 dekabr] adlı məqalələrində də "Molla Nəsrəddin"in dini fanatizmə münasibət məsələlərinə geniş yer verilmişdir. Hər zaman özünü yazıq, məzlum, başqa millətlər tərəfindən əzilən, zülmə düçar edilən bir millət olduqlarını dünyaya bəyan edən ermənilərin iç üzünün açılmasında "Molla Nəsrəddin" jurnalının böyük xidmətləri olmuşdur. Ötən əsrdə dəfələrlə baş verən erməni-müsəlman davası jurnalın ən aktual mövzularından olmuşdur. V.Məmmədov 20 noyabr 2009-cu ildə "Şərq qapısı" qəzetində dərc olunmuş "Molla Nəsrəddin" jurnalında erməni xislətinin təqdimi" adlı məqaləsində erməni-müsəlman məsələsinə toxunaraq yazır: "Erməni hiyləsi, erməni xəbisliyi özünü onda göstərir ki, onlar başqalarının, xüsusilə müsəlmanların xoş güzəranına qətiyyən razı olmur, hətta hər vasitə ilə buna maneə olmağa çalışırdılar. Xüsusilə ermənilərin əlindən keçən, onlardan asılı olan işlərdə müsəlmanın zərrə qədər mənfəətə

çatmasına belə imkan vermirlər. Elə buna görə də Uluxanlı müsəlmanlarının kömək məqsədilə toplayıb Ordubada göndərmək istədikləri cəmi 50 manat ianənin guya poçta (əslində isə erməni hiyləsi ilə) itməsindən xəbər tutan "Molla Nəsrəddin" yazırdı: "Bilmirəm nədəndir ki, erməni-müsəlman davası düşəndən ianə üçün cəm olan pulların və qəbzlərin başına çox vaxt belə işlər gəlib. Görəsən bu nədəndir?".

"Molla Nəsrəddin" də çap olunan materialalrdan məlum olur ki, erməni-müsəlman münaqişələrində çar hökumətin əksər məmurları hər zaman ermənilərin tərəfində olmuş, onları haqlı bilmişlər. H.Əsgərovun "Molla Nəsrəddin"də erməni-müsəlman davasının satirik panoramı" [6, 2002, 12 mart], V.Məmmədovun "Molla Nəsrəddin" və erməni xilafətinin təsviri" [6, 2006, 24 fevral] və F.Kazımovanın "Mollanəsrəddinçilərin yaradıcılığında erməni məsələsi" [6, 2006, 20 iyul] adlı məqalələrində də jurnalın erməni-müsəlman davasına münasibəti məsələlərindən bəhs olunur. "Molla Nəsrəddin" jurnalında Naxçıvan mühitinin acınacaqlı vəziyyəti, müsəlman aləmini öz cənginə alan cəhalət, fanatizm, nadanlıq və xurafat, gerilik və mövhumat satirik gülüşün qüdrəti ilə tənqid olunmuşdur.

Xalqın maariflənməsi, qaranlıq dünyadan xilas olmasına rəvac verən jurnalın bu yoldakı xidmətləri haqqında "Şərq qapısı" qəzetində dərc olunan Y.Hüseynovun "Oyanışdan tərəqqiyə" [6, 2011, 29 aprel], R.Qasımovun "Milli mütərrəqi ideyaların tərənnümçüsü: "Molla Nəsrəddin" jurnalının məqsədi müstəqil və bütöv Azərbaycan idi" [6, 2018, 20 aprel], M.Yusifovun "Molla Nəsrəddin" jurnalı Naxçıvan haqqında [6, 1976, 21 aprel], M.Nəsirlinin "Molla Nəsrəddin" Naxçıvan haqqında [6, 1967, 13 iyun], A.Əsgərovun "Molla Nəsrəddin böyük məktəb olub bu gün də öyrəniləcək, sabah da" [6, 2006, 10 mart], A.Nağıyevin "Cəhalətə, nadanlığa qarşı mübarizə aparan jurnal: "Molla Nəsrəddin" [6, 2008, 8 aprel], R.İsmayılov "Molla Nəsrəddin" jurnalı öz fəaliyyətində maarifçiliyə yol verirdi" [6, 2015, 15 mart] adlı yazılarında geniş şəkildə söz açılır.

"Molla Nəsrəddin" jurnalı Azərbaycanda **satirik qrafikanın, karikatura** sənətinin, mətbuat rəssamlığının, kitab qrafikasının yaradılmasında silinməz izlər buraxmışdır. Jurnalın karikatura sahəsindəki uğurlarını tədqiq edən müəlliflərin bu mövzuda yazdıqları məqalələri də "Şərq qapısı" qəzetində çap edilmişdir: Ü.Həmzəyevanın "Molla Nəsrəddin" jurnalının karikaturaçı rəssamlarının yetişməsində rolu böyük olub" [6, 2006, 8 fevral],

T.Həsənlinin "Mollanəsrəddin"çi karikatiraçılar" [6, 2006, 20 aprel], S.Gəncəlinin "Karikatura qalereyası" [6, 1976] və H.Qədimovun "Mollanəsrəddin"çi rəssamlar Ədəbiyyat muzeyinin fondunda və ekspozisiyasında" [6, 2010, 31 mart] adlı yazıları bu qəbildəndir. Mirzə Cəlilin xalqın tərəqqisi, maariflənməsi yolunda apardığı tarixi xidmətləri danılmazdır. Onun bu xidmətləri müasirləri və qələm yoldaşları tərəfindən yüksək qiymətləndirilmişdir. "Şərq qapısı" qəzetində işıq üzü görən Ə.R.Şəmsinin "Görkəmli simalar "Molla Nəsrəddin" haqqında" [6, 1966, 29 sentyabr], V.Əliyevin "Molla Nəsrəddin" yaxın dostu [6, 1976, 6 iyun], K.Camalovun "Böyük simalar C.Məmmədquluazdə və "Molla Nəsrəddin" haqqında" [6, 2010, 20 fevral], "Molla Nəsrəddin"in ideal dostu-Qurbanəli Şərifzadə" [6, 2011, 11 yanvar], İ.Cəfərovun "Qələmin müqəddəs vəzifəsi: C.Məmmədquluazdə və "Molla Nəsrəddin" [6, 2010, 20 aprel] adlı məqalələrində də görkəmli simaların C.Məmmədquluzadə haqqında söylədikləri, qələmə aldıqları fikirlər ətraflı şəkildə şərh olunmuşdur.

Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, "Şərq qapısı" qəzetində dərc olunan naxçıvanlı müəlliflərin məqalələrində "Molla Nəsrəddin" jurnalının yaranması, nəşri tarixi, mövzu dairəsi, tənqid hədəfləri, Azərbaycan mətbuatına təsiri, xalqın maariflənməsi üçün göstərdiyi xidmətlər və bu kimi digər məsələlər öz əksini tapmışdır. Bu məqalələrin Naxçıvanın elmi və ədəbi mühitində özünəməxsus dəyəri və əhəmiyyəti vardır.

**ƏDƏBİYYAT**

1.Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri, Naxçıvan: "Əcəmi" NPB, 2009, 424 s.
2.Məmmədquluzadə C. Xatiratım, Bakı: "Xan" nəşriyyatı, 2014, 148 s.
3.Məmmədquluzadə H. Mirzə Cəlil haqqında xatirələrim, Bakı: Gənclik, 1981, 154 s.
"Molla Nəsrəddin" jurnalı.
4.Şərif Ə. Molla Nəsrəddin necə yarandı. Naxçıvan: "Əcəmi" NPB, 2009, 384 s.
5."Şərq qapısı" qəzeti.

***AMEA Naxçıvan Bölməsinin dissertantı**
***E-mail: gunal8787@list.ru***

**Gunel Asgarova**

## "MOLLA NASRADDIN" MAGAZINE ON THE PAGES OF THE "SHARG GAPISI"

"Sharg Gapisi" newspaper is one of the medias in the history of the Azerbaijani press, which has created a unique school in the development of national press of Azerbaijan.The newspaper "Sharg qapisi", which plays an important role in the development of the literary and cultural environment along with Nakhchivan's public and political life, makes a worthy contribution to the development of education and science in our country.The Order signed by the Chairman of the Supreme Assembly of the Nakhchivan Autonomous Republic on the occasion of the 100th anniversary of the publication of the first issue of the "Sharg Gapisi" is a clear expression of the high value given to the development of the national press, words, writers, intellectuals and author thinking.

The article grouped and analyzed the articles of Nakhchivan authors published in "Sharg Gapisi" newspaper about "Molla Nasraddin" magazine, a masterpiece of J. Mammadguluzadeh.

**Keywords:** *"Sharq Gapisi" newspaper, "Molla Nasraddin" magazine, Nakhchivan,supporters of "Molla Nasraddin", literary school, press.*

**Гюнель Аскерова**

## ЖУРНАЛ «МОЛЛА НАСРЕДДИН» НА СТРАНИЦАХ «ШАРГ ГАПЫСЫ»

Одним из органов печати, создавшим своеобразную школу в истории азербайджанской печати и достигшим наивысшего пика в развитии нашей национальной прессы, является газета "ШаргГапысы".Наряду с общественно-политической жизнью Нахчывана, газета «ШаргГапысы», играющая важную роль в развитии литературной и культурной среды, вносит достойный вклад в развитие просвещения и науки в нашей стране.Распоряжение, подписанное Председателем Верховного Меджлиса Нахчыванской Автономной Республики в связи со 100-летним юбилеем выхода в печать первого номера «ШаргГа-

пысы», является ярким выражением высокой оценки, внимания, придаваемой развитию национальной печати, слову, писателям, интеллигентной мысли и творческому мышлению в нашей автономной республике.

В статье сгруппированы и проанализированы опубликованные в газете «ШаргГапысы» статьи Нахчыванских авторово журнале “Молла Насреддин”, являющемся шедевром ДжалилаМамедгулузаде.

**Ключевые слова:** *газета “Шарг гапысы”, журнал “Молла Насреддин”, Нахчыван, молланасреддинцы, литературная школа, пресса.*

*(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 24.06.2021**
**Son variant 29.08.2021**